## 2018-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

**2018-ci ilin avqust ayı üzrə vergi ödəyiciləri tədiyəçisi olduqları**

- **Əlavə dəyər vergisi bəyannaməsini,**
- **Aksiz bəyannaməsini,**
- **Yol vergisi bəyannaməsini,**
- **Mədən vergisi bəyannaməsini,**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və**
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

· **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən** cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- **Muzdlu işlə əlaqədar 2018-ci ilin avqust ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir

(ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən 3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

- **Xüsusi notariusların 2018-ci ilin avqust ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **sentyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (3-cü rüb üzrə bəyannamə cari ilin oktyabr ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Qeyd:** 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən 2018-ci ilin 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin son müddəti 22.10.2018-ci il tarixə keçirilmişdir.

# İdman xəbərləri

## «Qəbələ»dən ilk heç-heçə

Avqustun 25-də Topaz Premyer Liqasında III tura start verilib. Turun ilk görüşü Qəbələ şəhər stadionunda keçirilib. "Qəbələ" milli komandaların oyunları ilə əlaqədar yaranan fasilə ərəfəsindəki son matçda öz meydanında "Sumqayıt"ı qəbul edib.

Görüşə "Qəbələ" daha fəal başlayıb. İlk dəqiqələrdən təşəbbüsü ələ alan "qırmızı-qaralar" əsasən cinahlarla hücumlar təşkil edib. Qonaqlar isə tamamilə müdafiəyə qapanmayıb, rəqib qapısına həmlələr də təşkil edib. Hətta bir neçə epizodda Dmitri Bezotosnı ustalığını nümayiş etdirməli olub. Komandamız isə uzun müddət rəqibin müdafiə səddini yarmaqda çətinlik çəkib. Bir neçə dəfə uzaqdan zərbə ilə fərqlənməyə çalışan futbolçularımız ilk real təhlükəni 29-cu dəqiqədə yaradıb. İlqar Qurbanovun uzun ötürməsindən sonra Ceyms Adeniyi qapıçı ilə üz-üzə qalsa da, qolkiper onun ayaqları altına atılaraq iki cəhddə topa yiyələnib. Hissənin sonlarında isə uzun ötürmədən sonra qapı önündə qərarlaşan Rauf Əliyev kobudluqla dayandırılıb. Rail Məlikovun bu hərəkəti penalti kimi dəyərləndirilib. Təmkin Xəlilzadənin 11 metrlik nöqtədən zərbəsi dəqiq olub - 1:0. Hesab açıldıqdan sonra "Sumqayıt" fəallığı artırsa da, "qırmızı-qaralar"ın qapısı önündə təhlükə yarada bilməyib.

Matça əlavə olunan dəqiqələrdə isə sumqayıtlılar bərabərlik qoluna imza atıb. Şəhriyar Əliyevin qapı önünə hava ötürməsini Yusif Nəbiyev başla tamamlayıb - 1:1.

Beləliklə, "Qəbələ" mövsümdə ilk heç-heçəsinə imza atıb.

## Qəbələdə cüdo hakimləri üçün seminar keçirilib

Azərbaycan Cüdo Federasiyası tərəfindən mütəmadi olaraq məşqçi-müəllimlər və hakimlər üçün seminarlar təşkil olunur. Növbəti belə bir tədbir Qəbələdə baş tutub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə ölkə birinciklərini idarə edən hakimlər, eləcə də "Şimal bölgəsi" regionunun məşqçi və müəllimləri üçün seminar keçirilib. Seminarda Hakimlər Komitəsinin üzvləri Tərlan Həsənov, Telman Əhmədli, beynəlxalq dərəcəli hakimlər Metin Rəhimli, Arzu Acalova iştirak ediblər.

Seminarda gün ərzində həm nəzəri, həm də tatamidə praktiki məşğələlər keçirilib.

## Akademiyamızın məşqçisi milli komandada

"Qəbələ" Futbol Akademiyasının məşqçisi Famil Xəlilov Azərbaycan milli komandasına təyinat alıb. 35 yaşlı mütəxəssis 15 yaşadək futbolçulardan ibarət yığmaya rəhbərlik edəcək. Belə ki, bu komandanın baş məşqçisi vəzifəsi Xəlilova həvalə olunub.

2008-ci ildən klubumuzun akademiyasında çalışan mütəxəssis bu 10 ildə müxtəlif yaş qrupu üzrə komandalarda fəaliyyət göstərib. "Qəbələ"nin gənc oyunçularının yetişib, ərsəyə gəlməsində pay sahibi olan Xəlilov rəhbərlik etdiyi komandalarla Azərbaycan çempionu olub, müxtəlif əyarlı mükafatlara yiyələnib.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

# Elanlar

***Vətəndaşların nəzərinə!***

«Azərxalça» ASC-nin Qəbələ filialı qadınları «toxucu» işinə dəvət edir.

İşaxataran və işsiz qadınların həmin müəssisədə işlə təmin olunmaları üçün Qəbələ Rayon Məşğulluq Mərkəzinə (ünvan: Qəbələ şəhəri H. Aslnov küçəsi 31) və yaxud müəssisəyə (ünvan: Qəbələ şəhəri E.Kərimov küçəsi, Qafqaz Sport Hotellə üzüzə, müraciət etmələri xahiş olunur.

***Qəbələ Rayon Məşğulluq Mərkəzi.***

***Hörmətli qəbələlilər!***

Doğma Qəbələmizi əsrarəngiz gözəlliyinə görə təbiətin möcüzəsi adlandırırlar. Son 20 ildə bu təbii gözəlliyə insanların əli ilə xariqələr əlavə olunmuşdur. Yeni gözəl yaşayış evləri, istirahət mərkəzləri, sənaye obyektləri mədəniyyət sarayları, burada keçirilən ölkə və beynəlxalq miqyaslı tədbirlər Qəbələnin şöhrətini dünyaya yaymışdır. Hər gün Qəbələyə dünyanın müxtəlif ölkələrindən yüzlərlə qonaq gəlir. Bütün bunlara və həm də öz sağlamlığımıza görə Qəbələni təmiz, səliqəli saxlamaq onun ekologiyasını qorumaq hər bir vətəndaşın borcudur. Çox təəsüf ki, hələ də yol kənarlarına xüsusən şəhərdən keçən su arxlarına məişət tullantıları atanlara, həyətlərdə, bağlarda kol-kos,quru yarpaq yandıraraq ətraf mühiti və atmosferi çirkləndirənlərə təsadüf olunur. Nəzərinizə çatdiririq ki, belə hallara yol verənlər inzibati məsuliyyət daşıyırlar və onlara qanunvericilikdə nəzərdə tutulan cərimələr tətbiq olunacaqdır. Gəlin hamımız birlikdə şəhərimizin gözəlliyinin, təmizliyinin qayğısına qalaq.

**6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi.**



***Dizaxlı kənd sakini kiçik yaşlı Cahid İmanov 7 ildir ki, böyrək xəstəliyindən əziyyət çəkir. Balaca Cahidin müalicəsi ancaq xaricdə mümkündür. Ailənin onu xaricdə müalicə etdirmək imkanı olmadığı üçün xeyirxah insanların köməyinə ehtiyacı var. Cahidin həyatda qalması və yaşaması xeyirxah insanların köməyindən asılıdır. Yardım etmək istəyənlər ödəmə terminallarından 4169 7413 5205 1088 kodlu hesaba pul köçürə bilərlər.***

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Mirzəbəyli kənd sakini **Əliyev Elman Vahid oğluna** verilmiş JN: seriyalı 258 nömrəli (kod 40613018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Həmzəlli kənd sakini **Qasımov Faiq Qasım oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 094 F nömrəli (kod 40605018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən 22 yanvar 2000-ci ildə Soltan Nuxa kənd sakini **Seyidov İnqilab Hacıbala oğluna** verilmiş 022254 nömrəli **müharibə veteranı vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (kənd) sakini **Hacıbalayev Rəmzi Nadir oğluna** verilmiş JN seriyalı 1634 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli o4 saylı qərarı ilə Nic qəsəbə (əvvəlki kənd) sakini **Cumarov Kamal Əliyəsər oğluna** verilmiş JN seriyalı 277 F nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə Corlu kənd sakini **Məsimov Alxas İsmayıl oğluna** verilmiş JN seriyalı 0016 nömrəli (kod 40613028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 20 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Bum qəsəbə (keçmiş kənd) sakini **Əhmədov Məhəmmədiyə Qulu oğluna** verilmiş JN seriyalı 358 A nömrəli (kod 40600038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 dekabr 2002-ci il tarixli 17 nömrəli qərarı ilə Nohurqışlaq kənd sakini **Rəsulov Ağasəddin Abduhəlim oğluna** verilmiş JN seriyalı 179F nömrəli (kod 40616028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Məsul katib Qüdrət Səmədov

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1844*